JÖRG TAUSS
MITGLIED DES DEUTSCHEN BUNDESTAGES

Jörg Tauss, MdB · Marktplatz 4 · 75015 Bretten

President of the Republic of Azerbaijan
Ilham Alijew
"The President Palace"
Baku City, AZ 1066
Istiglaliyyat Street 19
Aserbaidschan - Azerbaijan

Bretten, den 18. August 2009

Hörmətli cənab Prezident,

Almaniya, Avropa və onun hüdudlarından kənarda çox sayda insan iki Azərbaycan vətəndaşı- Adnan və Eminin həbsi və bununla əlaqədar yaranmış vəziyyəti narahatlıqla izləyir.

Qapalı məhkəmə iclasları, onların valideynləri və xarici diplomatlarla görüşməyə icazə verilməməsi, çoxlu sual doğuran istintaq prosesi və həbsin ilk günlərində həbs edilənlərə düzgün olmayan davranış Azərbaycanın Avropa Şurasında üzv olaraq riayət etməyi öhdəsinə götürdüyü prinsiplərə uyğun deyil.

Odur ki, Sizdən bir daha xahiş etmək istəyirəm ki, bu məsələni şəxsən öz nəzarətinizə götürəsiniz. Bakıda son səfərim zamanı prokurorluq və istintaq orqanlarında mənə bildirdilər ki, yüksək hökumət instansiyaları tərəfindən göstəriş olarsa, mənim həbsdə olanlara baş çəkməyimə heç bir maneə olmayacaq.

Cənab prezident, bu səbəbdən, dövlət hakimiyyətinin ən yüksək orqanı kimi, mən bir daha Sizə müraciət edirəm.

Bu ilin 31.08.-01.09. tarixlərində Bakıya növbəti səfərim zamanı həbsdə olan həmin vətəndaşlarla görüşməyim üçün Sizin və ya idarənizin nəzərincə heç bir maneə olmaması və bu günlərin birində yerli idarələr tərəfindən bu görüşə şərait yaradılmasının təmin olunması tapşırığı haqqında Sizdən, və ya əlaqədar nazirlikdən aidiyyatı olan orqanlara təqdim etmək üçün təsdiq məktubu

E-Mail: joerg.tauss@wk.bundestag.de Internet: http://www.tauss.de

**Bundestag:**
Unter den Linden 50
11011 Berlin
Tel: 030/227-77639
Fax: 030/227-76639

**Wahlkreisbüro:**
Marktplatz 4
75015 Bretten
Tel: 07252 / 5 803 803
Fax: 07252 / 5 803 805

verməyinizi rica edirəm. Əlbəttə, daha yaxşı olardı ki, bu vətəndaşlar o zamana qədər artıq azadlıqda olsunlar.

Polis və prokuroluq orqanları mənim son səfərim zamanı məlumat verdilər ki, həmin iki məhbusa qarşı istintaq fəaliyyəti yekunlaşmışdır. Qanunun aliliyi nəzərindən yanaşdıqda ehtiyac olmadan onların həbsdə saxlanması heç bir halda düzgün hesab edilə bilməz .

Hörmətli cənab prezident,

Sizin ölkənizi çox sevən bir dost kimi mən həmişə Almaniya ilə Azərbaycan arasında münasibətlərin yaxşılaşmasına çalışmışam. Xahiş edirəm ki, bunu nəzərə alaraq mənim xahişimə müsbət cavab verəsiniz. Bu hal Azərbaycanın Avropada və onun hüdudlarından kənarda nüfuzuna ciddi xələl gətirir və bu məsələnin tezliklə həll olunması yaxşı olardı. Həbsdə olanların valideynlərinə və eləcə də mənə görüş üçün icazə verilməsi bu məsələnin həlli yolunda vacib göstərici olardı olardı.

Sizin dəstəyinizə böyük ümid bəsləyirəm və arzu edirəm ki, Bakıya bundan sonrakı səfərlərim daha xoş məqsəd daşısın.
Əvvəlcədən təşəkkür edirəm.

Hörmətlə

Yörq Tauss
Almaniya Bundestaqının deputatı